AZERBAIJAN

# Olimpiya dünyası

www.olimpiyadunyasi.com
www.olimpnews.az

*Azərbaycan Milli Olimpiya Komitəsinin qəzeti*

*№ 13 (1515), 19 - 25 aprel 2022-ci il*

*Qəzet 2001-ci ildən çıxır.*

*Q.O.Qurbanovun “Şöhrət” ordeni ilə təltif edilməsi haqqında*
*Azərbaycan Respublikası Prezidentinin*

**S ə r ə n c a m ı**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan futbolunun inkişafında xidmətlərinə görə Qurban Osman oğlu Qurbanov “Şöhrət” ordeni ilə təltif edilsin.

*İlham Əliyev*
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 13 aprel 2022-ci il*

## Kamandan Oxatma Federasiyasında prezident seçkiləri keçirilib




Azərbaycan Kamandan Oxatma Federasiyasının ümumi yığıncağı keçirilib. Gənclər və İdman Nazirliyinin inzibati binasında keçirilən tədbir Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başlayıb. Əvvəlcə gənclər və idman naziri Fərid Qayıbov konfrans iştirakçılarını salamlayaraq onlara uğurlar arzulayıb.

Yığıncaqda Azərbaycan Kamandan Oxatma Federasiyasının son illərdəki fəaliyyəti barədə hesabatı dinlənilib, qurumun Nizamnaməsinə əlavə və dəyişikliklər edilib, federasiya rəhbərliyinə seçkilər keçirilib. Şahin Mövsümov yenidən federasiyanın prezidenti seçilib. Həmçinin Seymur Qurbanov federasiyanın vitse-prezidenti, Tural Seyidov, Zemfira Qəhrəmanova və Natiq Fazilov İdarə Heyətinə üzv seçiliblər.

Tədbirin sonunda Azərbaycan Kamandan Oxatma Federasiyasının prezidenti Şahin Mövsümov çıxış edərək qurumun bundan sonrakı fəaliyyəti və qarşıdakı planları barədə danışıb.

## Azərbaycan Cüdo Federasiyasının prezidentinə beynəlxalq qurumdan etimad

Azərbaycan Cüdo Federasiyasının (ACF) prezidenti Rəşad Nəbiyevə Beynəlxalq Cüdo Federasiyası (BCF) tərəfindən etimad göstərilib. R.Nəbiyev beynəlxalq qurumun yeni yaradılmış Yeni texnologiyalar və yüksək məhsuldarlıq komissiyasının sədri seçilib. Komissiyanın əsas missiyası müasir texnologiyaları tətbiq edərək idmançıların performansını yüksəltmək istiqamətində tədbirlər həyata keçirmək, eyni zamanda, cüdo idman növünün hərtərəfli inkişafına nail olmaqdır.

BCF-nin rəsmi saytında bildirilib ki, yeni komissiya daim dəyişən dünyada cüdonu təbliğ edərək, ümumilikdə idmanın inkişafına kömək edəcək, eləcə də texnologiyaları müasir bir vasitə kimi idmançıların və cəmiyyətin xeyri üçün istifadə edilməsi istiqamətində çalışacaq. Belə ki, müasir dünyada yeni texnologiyalar hər bir sahəyə, o cümlədən idman sahəsinə də öz müsbət təsirini göstərməkdədir.

Buna görə də, yeniliklərə hər zaman açıq olan və bu yenilikləri cüdoya vaxtında və ən məhsuldar şəkildə tətbiq etməyi hədəfləyən BCF Yeni texnologiyalar və yüksək məhsuldarlıq komissiyası yaratmağa qərar verib.

## *Olimpiya mükafatçımıza həsr olunan verilişin təqdimatı olub*

Azərbaycanın yunan-Roma güləşçisi Rafiq Hüseynova həsr olunan verilişin təqdimat mərasimi olub. Tədbirdə gənclər və idman naziri Fərid Qayıbov, Azərbaycan Güləş Federasiyasının rəsmiləri, tanınmış idmançılar və digər qonaqlar iştirak ediblər.

“Motivator Azerbaijan”ın hazırladığı “26 il arzuladıqlarımı 6 aya həyata keçirtdim” adlı verilişin təqdimatından öncə çıxış edən R.Hüseynov bu addıma görə təşkilatçılara təşəkkür edib. O, ürəyindən keçən hər şeyi verilişdə danışdığını bildirib.

Daha sonra veriliş böyük monitorda nümayiş olunub. Verilişdə dünya və üçqat Avropa çempionunun güləşə başlamasından, qazandığı nailiyyətlərdən və gələcək hədəflərindən bəhs edib.

## Paris Olimpiadasında iştirak edəcək gimnastların sayı açıqlandı

Paris-2024 XXXIII Yay Olimpiya Oyunlarında iştirak edəcək gimnastların sayı dəqiqləşib. Fransanın paytaxtında ümumilikdə 318 gimnast medallar uğrunda mübarizə aparacaq.

Onlardan 192-si idman, 94-ü bədii, 32-si batut gimnastikasında qüvvəsini sınayacaq. 96 kişi və 96 qadın idman gimnastikasında, 16 kişi və 16 qadın batutda yarışacaq. Bədii gimnastikada 24 idmançı fərdi yarışlara, hərəsində 5 idmançı olan 14 komanda isə qrup mübarizəsində çıxış edəcək.

İdman gimnastikası yarışları iyulun 27-dən avqustun 5-dək, batut gimnastları avqustun 2-də, bədii gimnastlar avqustun 5-8-də çıxış edəcək.

Qeyd edək ki, Tokio-2020 Yay Olimpiya Oyunlarında ümumilikdə 324 gimnast mübarizə aparıb. Azərbaycan yarışda 8 idmançı ilə təmsil olunub.

## Ağası Məmmədov:
### “İdmana başladığım zalda Olimpiya çempionları yetişdirməyi arzulayıram”

Səh. 4

*İdman dünyasındakı maraqlı və operativ xəbərləri gündəlik*
**olimpiyadunyasi.com** *onlayn qəzetindən oxuyun*




## *Anons*

*“Qəhrəmanların və dahilərin izi ilə təmiz qələbələrə doğru” adlı tədbir*

Səh. 2

## Ultra-müasir futbol



Səh. 6



## *“Sabah”ın qolu “Neftçi”yə 3 xal qazandırdı*

Səh. 7

## Fərid Qayıbov Azərbaycan əsilli UFC döyüşçüsü ilə görüşüb

Azərbaycanın gənclər və idman naziri Fərid Qayıbov UFC döyüşçüsü Rafael Fiziyev ilə görüşüb. Görüş zamanı Azərbaycan əsilli idmançını uğurlu karyerası münasibətilə təbrik edən nazir, ona bundan sonrakı döyüşlərində də uğurlar arzulayıb.

Son illərdə Azərbaycan idmançılarının MMA döyüşlərində uğurla çıxış etdikləri qeyd olunub. Bu baxımdan idmançılar arasında birgə təlim-məşqlərin, ustad dərslərinin keçirilməsi idmanın bu növünün inkişafı baxımından önəmlidir.

* * *

Gənclər və idman naziri Fərid Qayıbov Azərbaycanın ilk "dəmir qadını" adını qazanmış triatlonçu Rəbiyyə Orucova ilə görüşüb. Gənclər və İdman Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, idmançımız yarışın velosiped mərhələsində qəzaya uğrasa da, əsl iradə nümayiş etdirərək mübarizəni davam etdirib və finişə çatıb. R.Orucovanın çıxışı ilə maraqlanan nazir, onu uğuru münasibətilə təbrik edib və yeni qələbələr arzulayıb.

Öz növbəsində, R.Orucova ölkəmizdə idmançılar üçün yaradılmış şəraitə, kütləviliyin diqqət mərkəzində saxlanılmasına görə dövlətimizin başçısı İlham Əliyevə və Birinci vitse-prezident Mehriban Əliyevaya minnətdarlığını bildirib.

Qeyd edək ki, R.Orucova Cənubi Afrika Respublikasının Port Elizabet şəhərində keçirilən "Isuzu Ironman" turnirində uğurla çıxış edərək "Ironman" titulunu qazanıb. "Triterra Baku Triatlon Klubu"nun nümayəndəsi olan idmançımız 3,8 kilometr üzgüçülük, 180 kilometr velosiped, 42 kilometr qaçış da daxil olmaqla, tam "dəmir məsafəni" 12 saat 18 dəqiqə 21 saniyəyə qət edib.





## "Qəhrəmanların və dahilərin izi ilə təmiz qələbələrə doğru" adlı tədbir

Azərbaycan Milli Antidopinq Agentliyi (AMADA) "Qəhrəmanların və dahilərin izi ilə təmiz qələbələrə doğru" adlı tədbir keçirib. İdmanda ədalət prinsipinin qorunması və təbliğinə həsr olunmuş tədbirdə məşhur idmançılar və idman mətbuatının nümayəndələri iştirak ediblər. Tədbiri giriş sözü ilə açan AMADA-nın direktoru Şəfəq Hüseynli bildirib ki, Azərbaycan dövləti hər bir sahədə olduğu kimi, idmanda da ədalət prinsipinə sadiqdir və onu qorumağa çalışır. Azərbaycan hər zaman ədalətin yanındadır. 44 günlük Vətən müharibəsi bunun ən bariz nümunəsidir. AMADA-nın direktoru bildirib ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bütün sahələrdə olduğu kimi, idmanda da ədalət prinsipinin qorunmasına ölkəmizin beynəlxalq aləmdə ləyaqətlə təmsil olunmasına böyük əhəmiyyət verir. Məhz Azərbaycan Prezidentinin fikirlərini rəhbər tutaraq AMADA idmanda ədalət prinsipinin daha geniş şəkildə təbliğ etmək üçün müəyyən tədbirlər həyata keçirir. 2022-ci ilin Şuşa ili elan olunduğunu da nəzərə alaraq bu şəhərdə "Qəhrəmanların və dahilərin izi ilə təmiz qələbələrə doğru" adlı bir layihə reallaşdırılıb. Həmin layihə əsasında isə eyni adlı videoçarx hazırlanıb. Tədbirdə videoçarxın təqdimatı da olub.

Ş.Hüseynli Şuşa səfərinin təşkil olunması və yaradılan şəraitə görə dövlətimizə xüsusi ilə də, Prezidentin Şuşa rayonunda xüsusi nümayəndəliyi, Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi və orada fəaliyyət göstərən hüquq mühafizə orqanlarının əməkdaşlarına minnətdarlığını bildirib.

Daha sonra isə ədalətli idmanın və təmiz idman dəyərlərinin qorunmasında idmançıların və medianın rolu mövzusunda müzakirələr aparılıb. Çıxış edən idmançılar və media nümayəndələri AMADA-nın bu istiqamətdə gördüyü işləri yüksək qiymətləndirərək "Qəhrəmanların və dahilərin izi ilə təmiz qələbələrə doğru" layihəsinə dəstəklərini ifadə ediblər. Ədalətli idmanın təbliğinin vacibliyi vurğulanıb, bu istiqamətdə məşhur idmançıların və medianın rolunun artırılması ilə bağlı təkliflər irəli sürülüb.

## Velosiped İdmanı Federasiyasında yenilik

Azərbaycan Velosiped İdmanı Federasiyasının (AzVİF) adı rəsmi olaraq dəyişdirilib.

Federasiyanın Mətbuat Xidmətindən verilən məlumata görə, qurumun adı bundan sonra Azərbaycan Velosiped Federasiyası (AVF) adlandırılacaq.

Ad dəyişikliyi zamanı Nazirlər Kabinetinin "İctimai Birliklərə Respublika İdman Federasiyası" statusunun verilməsi üzrə onların dövlət akkreditasiya Qaydasının tələbləri əsas götürülüb və Ədliyyə Nazirliyində rəsmi qeydiyyata alınıb.

Bundan əlavə, inkişaf strategiyasına uyğun olaraq federasiyanın loqosu da yenisi ilə əvəzlənib. Yaxın günlərdə Azərbaycan Velosiped Federasiyasının yenilənmiş saytı da oxucuların istifadəsinə veriləcək.

## *Şahmat Federasiyasının İcraiyyə Komitəsinin iclası keçirilib*



Azərbaycan Şahmat Federasiyasının (AŞF) prezidenti Mahir Məmmədovun rəhbərliyi altında İcraiyyə Komitəsinin 2022-ci ildə ilk iclası keçirilib.

Federasiyanın mətbuat xidmətindən verilən məlumata görə, iclasda AŞF-in prezidenti M.Məmmədov ilə yanaşı, İcraiyyə Komitəsinin digər üzvləri - birinci vitse-prezident Faiq Həsənov, vitse-prezident, Naxçıvan MR Şahmat Federasiyasının rəhbəri Seymur Talıbov, Sərxan Həşimov, Cahangir Ağarəhimov və baş katib İlahə Qədimova iştirak ediblər.

Görüşdə AŞF-nin nizamnaməsinə dəyişikliklər, cari ilin büdcəsi, yığma komandaya seçim şərtləri, təqaüd alacaq şahmatçıların müəyyən olunma kriteriyaları, daimi komissiyaların yaradılması və yarışların 2022-ci il üçün təqvimi müzakirə edilib.

M.Məmmədov qarşıda şahmatçıları bir sıra nüfuzlu yarışların gözlədiyini bildirib. O, gələcəkdə daha böyük uğurların qazanılması üçün lazımi işlərin görüləcəyini vurğulayıb. Federasiya prezidenti iclasda qaldırılan məsələlərin yerinə yetirilməsi üçün səylə çalışacaqlarını qeyd edib.

* * *

Azərbaycan Şahmat Federasiyasında (AŞF) Sloveniyada şəxsi Avropa çempionatında yüksək nəticə göstərən şahmatçılarla görüş keçirilib. Görüşdə qitə birinciliyinin yekun nəticələrinə əsasən, 3-8-ci yerləri bölüşən Vasif Durarbəyli, 9-11-ci yerləri tutan Abdulla Qədimbəyli, Misrətdin İsgəndərov, Qədir Hüseynov, ilk qrosmeyster balını toplayan Read Səmədov, qadınlar arasında qrosmeyster üzrə son normanı yerinə yetirən Gövhər Beydullayeva iştirak ediblər.

Görüşdə iştirak edən AŞF-nin prezidenti Mahir Məmmədov şahmatçıların nəticələrini yüksək qiymətləndirib, Vasif Durarbəyli, Abdulla Qədimbəyli, Misrətdin İsgəndərov, Qədir Hüseynovu 2023-cü ildə keçiriləcək dünya kubokuna vəsiqə qazanmaları münasibətilə təbrik edib. M.Məmmədov Abdulla Qədimbəylinin yarışda uzun müddət lider mövqeyində qərarlaşdığını xatırladaraq, onun Çexiya şahmatçısı David Navara üzərində qələbəsini xüsusi vurğulayıb. Federasiya rəhbəri qadın şahmatçılardan ibarət yığmanın üzvü Gövhər Beydullayevanın Avropa çempionatında xanımlar arasında ən yüksək nəticəni qazandığını və reytinqini 70 əmsal artırdığını söyləyib.

Sonda şahmatçıların fikirləri dinlənilib, onlara gələcək yarışlarda uğurlar arzulanıb.

## Azərbaycan Qran-Prisinə hazırlıq çərçivəsində tikinti işlərinə start verilib



Bakı Şəhər Halqası Əməliyyat Şirkəti (BŞH) ölkəmizdə keçiriləcək Formula 1 Azərbaycan Qran-Prisinə hazırlıq çərçivəsində trekin əhatə etdiyi ərazilərdə tikinti-quraşdırma işlərinə start verib.

BŞH-dən verilən məlumata görə, yarış zamanı vətəndaşların və sürücülərin təhlükəsizliyini təmin etmək məqsədi ilə istifadə olunan beton blokların quraşdırılması gecə saatlarında həyata keçirilir. Tikinti-quraşdırma işləri Xəqani küçəsi və Bülbül prospektinin kəsişməsindən başlayıb və bütün yarış trekini əhatə edəcək.

Ötən ildən fərqli olaraq builki yarış tamaşaçıların iştirakı ilə keçiriləcəyi üçün artıq Bulvar ərazisində tribunaların quraşdırılmasına da başlanılıb.

Paddok ərazisində infrastrukturun quraşdırılması işlərinə də start verilib.

## Ölkəmizdə beynəlxalq təlim-məşq toplanışı təşkil ediləcək

Azərbaycan Milli Karate Federasiyası (AMKF) qadınlar arasında 6-cı beynəlxalq təlim-məşq toplanışı təşkil edəcək.

Federasiyanın mətbuat xidmətindən verilən məlumata görə, qadınların baş məşqçisi Denis Morozovun rəhbərliyi ilə mayın 2-8-də AMKF-in təlim-məşq bazasında keçirilən hazırlığa Tokio Olimpiadasının gümüş mükafatçıları İrina Zaretska, Anjelika Terlyuqa (Ukrayna), dünya çempionu Ayumi Uekusa (Yaponiya) kimi tanınmış qadın karateçilər, həmçinin milli komandamızın titullu üzvləri qatılacaqlar.

Bakıda növbəti beynəlxalq təlim-məşqlərə bir sıra ölkələrdən idmançıların qatılması da gözlənilir. Xatırladaq ki, martın əvvəli müxtəlif yaşlı qadınların 1 həftə davam edən beynəlxalq seminarında idmançılarımızla birgə, Çexiya və Yunanıstandan karateçilər iştirak etmişdilər.



# Azərbaycanın sərhədçi-idmançıları təltif edildilər

Aprel ayının 16-da son dövrdə milli və beynəlxalq idman yarışlarında böyük nailiyyətlər qazanan “Sərhədçi” İdman Olimpiya Mərkəzinin idmançıları ilə görüş keçirilib.

Bu barədə Dövlət Sərhəd Xidmətinin (DSX) Mətbuat Mərkəzindən məlumat verilib.

Bildirilib ki, əldə etdikləri nailiyyətlər münasibətilə DSX-nin rəisi general-polkovnik Elçin Quliyevin təbrikləri idmançılara çatdırılıb.

2021-ci il ərzində mərkəzin idmançılarının 58 müxtəlif statuslu yarışlarda iştirak edərək 154-ü qızıl, 70-i gümüş, 75-i bürünc olmaqla 299 medal qazandıqları qeyd olunub, yalnız 2022-ci ilin birinci rübündə idmançıların Azərbaycan, Avropa, dünya çempionatları, beynəlxalq və yerli yarışlarda 164 medal qazandıqları, bunlardan 75-ni qızıl, 45-ni gümüş, 44-nü bürünc medallar təşkil etdiyi vurğulanıb.

“Sərhədçi” İdman Olimpiya Mərkəzinin idmançılarının təkcə fiziki hazırlığına deyil, həmçinin tədrisinə, Vətənə məhəbbət ruhunda tərbiyəsinə xüsusi diqqət yetirildiyi bildirilib.

Görüşdə dövlət sərhədlərimizin keşiyində ayıq-sayıq dayanaraq milli maraqlarımızın müdafiəsini şərəflə təmin edən hərbi qulluqçularımız kimi sərhədçi-idmançıların da beynəlxalq yarışlarda ölkəmizi layiqli təmsil etdikləri vurğulanıb, bu uğurların gələcəkdə də ən yüksək səviyyədə davam edəcəyinə əminlik ifadə olunub.

İdmançılar adından çıxış edən polkovnik Firdovsi Umudov göstərilən ali diqqət və qayğıya görə Azərbaycan Prezidenti İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya dərin minnətdarlıq ifadə edib, yeni uğurlar və qələbələr ilə göstərilən etimadı doğruldacaqlarına söz verib.

Sonda DSX rəisinin əmri ilə xidməti fəaliyyətlərində və mötəbər yarışlarda iştirak edərək yüksək nailiyyətlər əldə edən idmançılar təltif olunublar.

# Stolüstü tennis üzrə ölkə birinciliyi başa çatdı




Stolüstü tennis üzrə Azərbaycan birinciliyinin qalibləri müəyyənləşib. “Şüa” İdman - Sağlamlıq Kompleksində keçirilən yarışın son günündə final görüşləri olub. Gərgin və maraqlı mübarizə ilə yadda qalan birinciliyin nəticələrinə əsasən, 2004-2006-cı illər təvəllüdlü qızların şəxsi turnirində Ləman Abdulhəmidova qalib gəlib. Zemfira Mikayılova ikinci, Xədicə Əbilzadə ilə Səbinə Məmmədova üçüncü yerləri tutublar. Oğlanlar arasında baş mükafata Emin Məmmədov layiq görülüb. Kənan Pənahov gümüş, Murad Cəfərovla Hacımurad Məmmədbəyov bürünc medal qazanıblar.

Qızların qoşa yarışlarında Zemfira Mikayılova ilə Xədicə Əbilzadə, oğlanlarda isə Kənan Pənahovla Emin Məmmədov Azərbaycan çempionu olublar. Qarışıq-qoşa yarışlarda Ləman Abdulhəmidova ilə Kənan Pənahov bütün rəqiblərinə qalib gəlib.

2004-2006-cı illər təvəllüdlü qızların komanda turnirində “Bakı” komandası birinci, “Şəki” komandası ikinci yeri tutub. “Sumqayıt” və “Şabran” komandaları üçüncü yeri bölüşüblər. Oğlanların mübarizəsindən də “Bakı” komandası qalib ayrılıb. “Sumqayıt” ikinci, “Salyan” və “Şəki” tennisçiləri üçüncü yerlərə sahib olublar.

Mərziyyə Nürmətova 2007-ci il təvəllüdlü və daha azyaşlı tennisçilərin şəxsi mübarizəsindən qalib ayrılıb. Aylin Əsgərova gümüş, Arzu Aslanova ilə Yağmur Məmmədli bürünc medal əldə ediblər. Oğlanların yarışı Adil Əhmədzadənin qələbəsi ilə yekunlaşıb. Onur Quluzadə ikinci, Toğrul Məhəmmədovla Hüseyn Elyazov üçüncü yeri tutublar. Qızların qoşa yarışlarında Mərziyyə Nürmətova ilə Arzu Aslanova, oğlanların mübarizəsində isə Adil Əhmədzadə ilə Rüstəm Hacılı qalib gəliblər. Qarışıq-qoşa turnirdə Onur Quluzadə - Nigar Mahmudova tandemi çempion adına layiq görülüb. Qızların komanda yarışı “Sumqayıt - 1” kollektivinin qələbəsi ilə yekunlaşıb. “Sumqayıt -2” komandası ikinci yerdə qərarlaşıb. “Sumqayıt - 3” və “Şabran” fəxri kürsünün üçüncü pilləsində yer alıb.

Oğlanların turniri isə “Bakı-1” komandasının qələbəsi ilə başa çatıb. “Sumqayıt -1” ikinci yerlə kifayətlənib. “Bakı-2” və “Şabran” komandaları üçüncü pillədə qərarlaşıblar.

Qeyd edək ki, Azərbaycan Stolüstü Tennis Federasiyasının və Gənclər və İdman Nazirliyinin birgə təşkil etdiyi və kütləviliyi ilə seçilən budəfəki birinciliyə paytaxt tennisçiləri ilə yanaşı, Gəncə, Sumqayıt, Quba, Qusar, Şabran, Salyan, Şirvan, Şəki, Qax, Balakən, Ağstafa, Gədəbəy, Zərdab və Samuxdan, ümumilikdə 150-yə yaxın idmançı qatılıb.

Yarışda fərqlənən idmançılara Azərbaycan Stolüstü Tennis Federasiyasının mükafatları təqdim olunub. Fəxri kürsüyə yüksələn stolüstü tennisçilər seçmə komandaların heyətinə cəlb olunaraq beynəlxalq yarışlarda ölkəmizi təmsil etmək imkanı qazanıblar.

## “Məşqçilərimizi tanıyaq” adlı yeni layihəyə start verilib

Gənclər və İdman Nazirliyi “Məşqçilərimizi tanıyaq” adlı yeni layihəyə start verib. Layihə çərçivəsində ilk görüş Azərbaycan Voleybol Federasiyasının birinci vitse-prezidenti Faiq Qarayevlə olub.

Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının akt zalında keçirilən görüşdə idman ictimaiyyətinin nümayəndələri, gənc idmançılar, məşqçilər və akademiyanın tələbələri iştirak ediblər.

Tədbirdə gənclər və idman nazirinin müavini Mariana Vasileva və Akademiyanın rektoru Fuad Hacıyev çıxış ediblər.

M.Vasileva idmanın inkişafındakı xidmətlərinə görə F. Qarayevə Gənclər və İdman Nazirliyinin xüsusi mükafatını təqdim edib.

Gənclər və İdman Nazirliyinin hazırladığı, Faiq Qarayevin karyerasından bəhs edən videoçarxın nümayişindən sonra mütəxəssis öz xatirələrini danışıb və görüş iştirakçılarının suallarını cavablandırıb. Görüşün sonunda F.Qarayev ən yaxşı sual sahiblərinə öz hədiyyələrini təqdim edib.

Qeyd edək ki, Əməkdar bədən tərbiyəsi və idman xadimi, Əməkdar məşqçi Faiq Qarayevin idmanın inkişafındakı xidmətləri dövlətimiz tərəfindən yüksək qiymətləndirilib və tərcübəli mütəxəssis müxtəlif illərdə “Şöhrət” və 2-ci dərəcəli “Əmək” ordenlərinə, “Tərəqqi” medalına layiq görülüb.

## Bədii gimnastlar Bakı birinciliyində yarışacaqlar

Gimnastika növünün ən zərif nümayəndələri martda keçirilən Azərbaycan birinciliyindən sonra daha bir yerli yarışda, mayın 3-4-də 27-ci Bakı birinciliyində qüvvələrini sınayacaqlar.

Milli Gimnastika Arenasında keçiriləcək yarışda 9 klubdan ümumilikdə 157 bədii gimnast birincilik uğrunda mübarizə aparacaq.

Yarışda idmançılar fərdi və qrup hərəkətləri proqramında çıxış edəcəklər.

Birincilikdə gimnastlar fərdi çoxnövçülükdə və qrup hərəkətləri proqramında öz aralarında qalibləri müəyyənləşdirəcəklər.

Qeyd edək ki, Milli Gimnastika Arenasının qapıları Bakı birinciliyində də tamaşaçıların üzünə açıq olacaq. Azərbaycan Gimnastika Federasiyası tərəfindən keçirilən son üç yarışda olduğu kimi, gimnastikasevərlər paytaxt birinciliyində də həyəcanlı mübarizəni canlı izləmək imkanı əldə edəcəklər.

Yarışlarda tamaşaçı qismində iştirak edəcək şəxslər etibarlı olan COVID-19-a qarşı peyvənd olunmanı təsdiqləyən peyvənd sertifikatına və ya COVID-19-dan sağalaraq immunitetə malik olmanı təsdiqləyən sənədə, COVID-19-a qarşı peyvənd əks-göstərişi müəyyən edən əks-göstəriş sertifikatına (yaşı 18-dən aşağı olan şəxslər istisna olmaqla) malik olmalıdırlar.

* * *

Milli Gimnastika Arenasında bədii gimnastika üzrə xoreoqrafiya ilə bağlı müxtəlif mövzularda ustad dərsləri keçirilib. Dərslərdə “Ocaq Sport” klubu, Bakı Gimnastika



Məktəbi, “Grasiya” idman klubu, Su İdman Sarayı və digər klublardan məşqçilər, xoreoqraflar və gimnastlar iştirak ediblər.

Ustad dərslərinin təşkilində məqsəd bədii gimnastika üzrə xoreoqrafiyanın daha da təkmilləşdirilməsi olub.

## Direktorlar Şurasına yeni namizəd

Azərbaycan Boks Federasiyasının (ABF) vitse-prezidenti Vüsal Nəsirlinin Avropa Boks Konfederasiyasının (EUBC) Direktorlar Şurasına namizədliyi qeydə alınıb.

Bunu qurumun Direktorlar Şurası təsdiqləyib. EUBC aprelin 30-da keçiriləcək seçilər üçün namizədlərin tam siyahısını müəyyənləşdirib. Prezident postuna 4, Direktorlar Şurasına isə 15 namizədin adı siyahıya daxil edilib.

## İlqar Rəhimov Zaqrebdə uğurla çıxış edən idmançılarla görüşüb



Azərbaycan Milli Paralimpiya Komitəsinin (AMPK) prezidenti İlqar Rəhimov Xorvatiyanın Zaqreb şəhərində keçirilmiş “İntercontinental Challenger” çempionatında uğurla çıxış edən boccia üzrə millimizin üzləri ilə görüşüb.

AMPK-nın mətbuat xidmətindən verilən məlumata görə, görüşdə İ.Rəhimov deyib: “Komandanı uğurlu çıxış münasibətilə təbrik edirəm. Yarışın gərgin idman mübarizəsi şəraitində keçməyinə baxmayaraq, idmançılarımız qarşılarına qoyulan vəzifənin öhdəsindən layiqincə gəldilər, Azərbaycan bayrağını zirvələrə ucaldaraq himnimizi səsləndirdilər”.

Komitə prezidenti görüş zamanı idmançılara qarşıdakı yarışlarda uğurlar arzulayaraq bildirib ki, əsas məqsədimiz boccia millimizin “Paris-2024” XVII Yay Paralimpiya Oyunlarında ilk dəfə təmsil olunmasıdır.

Boccia İdman Federasiyasının baş katibi, milli komandanın baş məşqçisi İlham Məhərrəmov və komanda üzvləri qarşıya qoyulan məqsədlərə çatmaq üçün bundan sonra da intensiv şəkildə məşqləri davam etdirəcəklərini açıqlayıblar.

Qeyd edək ki, “İntercontinental Challenger” çempionatında millimizin üzvlərindən Bəhruz Mirzəyev və Sona Ağayeva qızıl, Orxan Kərimov isə bürünc medal qazanıblar.

**Bizim müsahibə**

# Ağası Məmmədov:
# "İdmana başladığım zalda Olimpiya çempionları yetişdirməyi arzulayıram"

Onun futbola həvəsi olsa da, atasının istəyi ilə boksu seçdi. Bir müddət Türkiyə yığma komandasının heyətində çıxış etdi. Qardaş ölkənin bayrağı altında Avropa çempionu və dünya çempionatının gümüş mükafatını qazanandan sonra Vətəni Azərbaycana qayıtdı. Bu idman növü üzrə Azərbaycanın ilk dünya çempionu və Olimpiya mükafatçısı adını qazandı. Dövrünə görə dünyanın texniki cəhətdən ən güclü 3 boksçusundan biri idi. Lakin Afina Olimpiadasından sonra keçirdiyi qəza demək olar ki, karyerasının başa çatmasına səbəb oldu. Yəqin ki, boksdan məlumatlı olanlar söhbətin kimdən getdiyini başa düşdülər. "Olimpiya dünyası" qəzetinin bu dəfəki qonağı "Tərəqqi" medallı, Əməkdar idman ustası, dünya, Avropa çempionu, Afina-2004 Yay Olimpiya Oyunlarının bürünc mükafatçısı, boks üzrə yeniyetmələrdən və kadetlərdən ibarət yığma komandanın köməkçi məşqçisi, Dövlət Gömrük Komitəsinin əməkdaşı Ağası Məmmədovdur.

Məlumat üçün bildirək ki, Ağası Məmmədov 1980-ci il iyunun 1-də Bakı şəhərində anadan olub. Yasamal rayonunda yerləşən 13 saylı tam orta məktəbdə təhsil alıb. 7 yaşı olarkən atasının təkidi ilə "Məhsul" İdman Cəmiyyətində baş məşqçi, sonradan isə şəxsi məşqçisinə çevrilən Vaqif Kazımovun yanında boks idman növünün sirlərinə yiyələnməyə başlayıb. Qısa zaman ərzində ölkədaxili və beynəlxalq turnirlərdə uğurla çıxış edərək, məşqçilərin etimadını qazanıb. 1995-ci ildə Azərbaycan çempionatının, bir il sonra isə İtaliyada keçirilən Avropa birinciliyinin qalibi adına sahib çıxıb. Azərbaycanın boks üzrə 9 nəfər Olimpiya mükafatçısından biri olan Ağası Məmmədovla görüşdük. Müsahibimizlə səmimi söhbəti oxuculara təqdim edirik.



***- Ağası müəllim, istərdik ki, söhbətimizə lap əvvəldən başlayaq. Bir müddət Türkiyə millisinin heyətində legioner həyatı yaşadınız. Buna zərurət nədən yarandı?***

- 1996-cı ildən 2001-ci ilə qədər Türkiyə millisinin heyətində çıxış etmişəm. Həmin dövrlər çox çətin idi. İndiki kimi idmana və idmançılara şərait yox idi. Hətta yarışlara getmək üçün pul tapılmırdı. Şəxsi məşqçim Vaqif Kazımov artıq bir il idi ki, Türkiyədə çalışırdı. Elə oldu ki, mən də məşqçimin köməkliyi ilə Türkiyəyə üz tutdum və qardaş ölkənin uğurları üçün döyüşdüm. Türkiyə millisinin adından kişilər arasında Avropa çempionu, dünya çempionatının gümüş mükafatçısı, Sidney-2000 Yay Olimpiya Oyunlarının beşincisi, 2001-ci ildə isə Ağdəniz Oyunlarının qalibi oldum. Həmin vaxtlar karyeramın ən parlaq dövrləri idi. Ümumiyyətlə, 1998-ci ildə Avropanın 11 ən güclü boksçusuna qalib gəlmişdim.

***- Azərbaycan millisinə qayıdışınız yəqin ki, asan həll olunmadı.***

- 1997-ci ildə möhtərəm Prezidentimiz İlham Əliyev Azərbaycan Milli Olimpiya Komitəsinin prezidenti olduqdan sonra ölkədə idmanın inkişafı baxımından çox şey dəyişdi. Demək olar ki, idman günbəgün inkişaf etməyə başladı, idmançılar diqqət və qayğı ilə əhatə olunurdular. Bundan sonra ölkəni tərk edən idmançılar və mütəxəssislər geri qayıtdılar. Mən də eyni zamanda şəxsi məşqçim Vaqif müəllimlə birgə 2001-ci ildə ölkəmizə qayıtdım. Vətənə qayıtdıqdan sonra mənim üçün bir qədər çətin oldu. Lakin sonradan öz formamı bərpa etməyi bacardım. 2003-cü ildə Tailandda keçirilən dünya çempionatında iştirak etdim. Həmin yarışda beş döyüş keçirdim və bütün görüşlərimi qələbə ilə başa vuraraq boks üzrə Azərbaycanın ilk dünya çempionu adını qazandım. Qeyd edim ki, mən həmin dövrdə dünyada 11 çəki dərəcəsi üzrə texniki cəhətdən ən güclü olan üç boksçudan biri idim. Digər iki boksçu isə kubalı idi.

***- Kubalı idmançı ilə döyüş Vətənə qayıtmaq üçün gözəl fürsət oldu.***

- Siz yəqin ki, kubalı idmançı Gilyermo Ortiz Riqondo ilə döyüşü nəzərdə tutursunuz. Onunla 2001-ci ildə Belfastda keçirilən dünya çempionatının finalında üz-üzə gəlmişdim. Lakin həmin yarışda mənə qarşı çox haqsızlıq oldu. Hakimlər ona heç bir əsası olmadan artıq xallar verirdilər. Beləliklə, hakimlərin ədalətsiz qərarı nəticəsində mən ona  məğlub oldum. Bu döyüşün nəticəsi mənə çox təsir etdi. Bundan sonra idmandan bir qədər incidim və Türkiyədən qayıtdım.

***- Amma siz sonra həmin məşhur kubalı idmançıya qalib gəldiniz. Ümumiyyətlə, Gilyermo Ortiz Riqondo rinqdə az sayda məğlub olub ki, onlardan biri də sizinlə görüşə təsadüf edir.***

- Mən onu ilk dəfə 1998-ci ildə Argentinada keçirilən gənclər arasında dünya çempionatında görmüşdüm. Onu həmin yarışda mərhum qazaxıstanlı boksçu Bekzat Səttərxanov məğlub etmişdi. Gilyermo Riqondo ilə rəqib kimi isə ilk dəfə Sidney Olimpiadasında qarşılaşdıq. O, məni həmin görüşdə məğlub etdi. 2001-ci ildə keçirilən dünya çempionatında isə hakimlərin qərarı ilə ona uduzdum. Amma mən bu görüşdə məğlub olmağımı qəbul etmirəm. Bu, ədalətsiz bir nəticə idi. Azərbaycan millisinin adından çıxış etdiyim dünya çempionatında isə ona qalib gəldim. O, səhv etmirəmsə karyerası ərzində iki dəfə məğlub olub. Onlardan birində Bekzat Səttərxanova, digərində isə mənə uduzub. Bundan sonra isə onun məğlub olduğunu görmədim.

***- İlk dəfə Olimpiya Oyunlarında Sidney-2000-də iştirak etmisiniz. Türkiyə millisinin adından çıxış etdiyiniz bu yarışda favorit olsanız da beşinci oldunuz.***

- Sidney-2000-də ilk iki döyüşdə qalib gəldim, üçüncü görüşdə isə kubalı Gilyermo Riqondoya məğlub oldum. Təsəvvür edin, Tampere şəhərindəki Avropa çempionatının finalında qalib gəldiyim rusiyalı boksçu Sidney Olimpiadasında ikinci yeri tutdu. Bundan başqa olimpiadada üçüncü yeri tutan ukraynalı boksçuya da öz vətənində keçirilən lisenziya xarakterli turnirdə qalib gəlmişdim. Bir sözlə, qalib gəldiyim idmançılar olimpiadada mükafatçılar sırasında yer aldılar, amma mən medal qazana bilmədim. Burada püşk amili də bir qədər rol oynadı.

***- Bəs Afina-2004-də sizə çempion olmağa nə mane oldu?***

- Afina Olimpiadasına dünya çempionu kimi yollanmışdım. Hər kəs məndən qızıl medal gözləyirdi. Olimpiadada ardıcıl üç döyüşdə qələbə qazandım. Tailandlı boksçu ilə görüşümdə isə nəyin necə baş verdiyini heç özüm də anlamadım. Bu barədə danışmaq istəmirəm. Həmin vaxtları xatırlayanda çox heyfislənirəm.

***- Nəyə görə?***

- Biz döyüşqabağı, axşamlar yatmazdan əvvəl vitamin qəbul edirdik. Həmin vitamin ürəyi gücləndirir, itirdiyin enerjini bərpa edirsən. Amma mən axşam həmin vitamini vurdura bilmədim. Düşünürəm ki, axşam mənə vitamin vurulsa idi, bəlkə də belə olmazdı. Həm də döyüşdən əvvəl axşam yaxşı yata bilmədim. Bilmirəm vitamini səhər vurdurdum ona görə oldu, ya rejimim qarışdı nə idisə, heç özüm də anlamadım. Bu görüşə qədər tailandlı idmançının döyüşünü kənardan izləyib özüm üçün təhlil edirdim. O, hər qalib gəldikcə sevinirdim, düşünürdüm ki, bu döyüşçü mənə rəqib ola bilməz. Amma hər şey əksinə oldu. Ümumilikdə isə olimpiadadakı çıxışımdan narazı qaldım. Çünki həmin yarışa özümü yaxşı səviyyədə hazırlaya bilməmişdim. Lap ikinci yeri tutsa idim belə, yenə də narazı olacaqdım.

***- Olimpiya Oyunlarından sonra bir qədər xoşagəlməz hadisələrlə üzləşdiniz. Müxtəlif illərdə iki dəfə avtomobil qəzası keçirdiniz. Hətta bunlardan birində uzun müddət komada qaldınız. Belə deyək, Allah sizə ikinci dəfə şans verdi.***

- Bəli, Afina Olimpiadasından sonra avtomobil qəzası keçirdim. 11 gün komada qaldım. Ağır kəllə-beyin travması almışdım. Bəlkə də, idmanın sayəsində dözümlülük göstərərək yenidən həyata qayıtdım. Milli Olimpiya Komitəsi, Gənclər və İdman Nazirliyi, Azərbaycan Boks Federasiyası və bütün idman ictimaiyyəti mənimlə yaxından maraqlandı. 21 gün xəstəxanada yatdım və həmin vaxt hər kəsin dəstəyini hiss etdim. Milli Olimpiya Komitəsi məni İrana müayinəyə göndərdi. Həkimlər mənə hələlik yüngül qaçışla kifayətlənməyə icazə verdilər. Ümumilikdə bu qəzaya görə 2 il idmandan kənarda qaldım. Sonra isə məşqlərə başladım. Əvvəlcə ölkədaxili yarışlarda qüvvəmi sınadım. Hətta əvvəlki fiziki normativlərimi də yerinə yetirə bilirdim. Qəzadan sonra hər kəs deyirdi ki, Ağası yenidən rinqə qayıdır. Düzdür, mən yenidən dünya boks arenasına qayıda bilərdim. Amma mənə mane olan bir çox səbəblər oldu. Bir məmur var idi, o mənim işlərimi həmişə pozurdu. İndi həyatda yoxdur və arxasınca danışmaq istəmirəm. Amma demək olar ki, onun hərəkətləri həyatıma və karyerama təsir etdi. O, bunu sonradan etiraf etdi amma gec idi, artıq karyeram məhv olmuşdu. Həmin adam mənə mane olmasa idi, yenə də rinqdə nailiyyətlər qazana bilərdim. Gərək həyatda heç kimin haqqına girməyəsən. Allah hər kəsi nadan insanlardan qorusun.

***- Karyeranızı başa vurduqdan sonra bir müddət mətbuatdan uzaq oldunuz. Gizlinə çəkilməyinizin səbəbi nə idi?***

- Karyeramı başa vurduqdan sonra bir müddət "Neftçi"də məşqçi kimi çalışdım. Hazırda isə şəxsi məşqçim yeniyetmələrdən ibarət baş məşqçi Vaqif Kazımovun yanında köməkçi məşqçi kimi çalışıram. Qeyd edim ki, mənim dünya, Avropa və Olimpiya mükafatını qazanmağımda şəxsi məşqçim Vaqif Kazımovun danılmaz rolu var. Bu gün idmanda qazandığım nailiyyətlərə görə ona çox borcluyam. Hazırda da yığma komandada Vaqif müəllimlə birgə çiyin-çiyinə çalışdığıma görə çox sevinirəm. Mən həm də kadetlərdən ibarət yığma komandanın köməkçi məşqçisiyəm. Dünya, Avropa çempionatlarında, Olimpiya Oyunlarında qazandığım təcrübəmi, bilik və bacarıqlarımı bu gün yeniyetmə idmançılarla bölüşürəm. Ən böyük arzularımdan biri də çempionlar yetişdirməkdir.






***- Ağası müəllim, Azərbaycan Boks Federasiyasında yeni prezident seçkiləri keçirildi və rəhbər dəyişikliyi baş verdi. Bu dəyişiklik federasiyada hansı yeniliklərlə özünü göstərir?***

- Dəyişiklikdən sonra bir sıra yeni startegiyalar müəyyənləşdirilib. Sahil müəllim veteran idmançı və məşqçilərlə görüşlər keçirir, ölkəmizdə boksun daha da inkişaf etdirilməsi və kütləviliyin artırılması üçün tapşırıqlarını verib. Qeyd edim ki, bu yaxınlarda idmançılarımız Xorvatiyanın Poreç şəhərində keçirilən 22 yaşadək boksçular arasında Avropa çempionatında uğurla çıxış edərək 4 medala sahib çıxdılar. Federasiya prezidentimizin qeyd etdiyi kimi, ilk addımımız uğurlu oldu. Ümid edirəm ki, federasiyada baş verən dəyişikliklər özünü göstərəcək və uğurlarımız davamlı olacaq.

***- Bir müddət əvvəl idmana başladığınız yerdə zal açaraq azyaşlı idmançılar yetişdirmək istəyirdiniz. Amma buna icazə verilmədi. Bu arzunuzun reallaşması üçün federasiya prezidenti ilə danışıqlar olubmu?***

- Bəli, bu yaxınlarda Boks Federasiyasının prezidenti Sahil Babayev Olimpiya, dünya və Avropa çempionatlarının qalib və mükafatçıları olan veteran idmançıları qəbul edərək, bu idman növünün inkişafı üçün fikirlərimizi və təkliflərimizi öyrəndi. Bu görüşdə Sahil müəllimdən Yasamal rayonunda yerləşən 13 saylı tam orta məktəbin yaxınlığında boks zalının açılması ilə bağlı xahişimi dilə gətirdim. Sahil müəllim də bu barədə məlumatlı olduğunu və məsələ ilə bağlı köməklik edəcəyini bildirdi. O, özü də həmin zalı çox yaxşı tanıyır. İnanıram ki, bu zalın açılması üçün köməklik olunacaq. Çünki həmin zal uzun müddətdir ki, boşdur və heç bir fəaliyyət göstərmir. Düşünürəm ki, Yasamal rayonunda idmana böyük marağın olduğunu nəzərə alaraq orada boks zalının açılması daha düzgün addım olar. Burada böyük potensial var. Zalın açılmasının Yasamalda boks idman növünün inkişafında, gənclərin pis vərdişlərdən uzaq olmasında və idmana cəlb olunmasında böyük rolu olacaq. İdmana başladığım zalda Olimpiya çempionları yetişdirməyi arzulayıram. Hətta klubun adını da indidən fikirləşmişəm - "Dəmir yumruq" boks klubu.

***- Ağası müəllim, övladlarınızdan sizin yolunuzu davam etdirən varmı?***

- Xeyr. Böyük oğlum Ağa basketbolla, kiçik oğlum Vaqif isə futbolla məşğul olur. Qızım Mehribanın isə gimnastikaya həvəsi var. Övladlarımın hansı idman növünü seçməsi fikrinə qarışmıram. Qeyd edim ki, mənim də kiçik yaşlarımda əsas həvəsim futbola olub. Amma atamın təkidi ilə boksu seçdim. Bu gün də boksu seçməyimdə peşman deyiləm. Boksun sayəsində dünya, Avropa, Olimpiya medalına sahib çıxdım, böyük nüfuz və hörmət qazandım. Bütün bunları isə gecə gündüz, gərgin məşqlərin sayəsində əldə etdim. Karyeramda qazandığım nailiyyətlərə görə əməyi keçən hər kəsə minnətdarlığımı bildirirəm. İdmançı kimi Türkiyə Cümhuriyyətinin adını, bayrağını yüksəklərə qaldırmışam və istiqlal marşını dünya və Avropa çempionatlarında səsləndirmişəm. Bundan sonra isə Azərbaycan idmanının uğurları üçün döyüşmüşəm. Sevinirəm ki, həm Türkiyənin, həm də Azərbaycanın adından çıxış edərək, medallar qazanmışam.

*Azər Əlizadə*

# "Şuşa İli"nə həsr olunan cüdo yarışı başa çatıb



Sumqayıt Şəhər Gənclər və İdman Baş İdarəsinin və Azərbaycan Cüdo Federasiyasının təşkilatçılığı ilə "Şuşa İli"nə həsr olunan cüdo üzrə Sumqayıt şəhər birinciliyi keçirilib. Sumqayıt Olimpiya İdman Kompleksində 2008-2010-cu il təvəllüdlü idmançılar arasında təşkil edilən yarışda, ümumilikdə 300-dən çox idmançı 20 çəki dərəcəsi üzrə mübarizə aparıb. İki gün davam edən yarışın təşkilində əsas məqsəd ölkəmizin bütün regionlarında cüdonu daha da populyarlaşdırmaq və kütləviləşdirməklə yeni istedadları üzə çıxarmaq, həmçinin onların vətənpərvərlik hisslərini gücləndirmək, yeniyetmələr və gənclər arasında idman vasitəsilə sağlam həyat tərzini təbliğ etməkdən ibarət olub.

15 yaşadək (U-15) yeniyetmələr arasında gərgin mübarizə şəraitində keçən yarışda qaliblər müəyyənləşib. Mükafatalayiq yer tutan cüdoçular təltif olunublar.

## Aprel döyüşləri şəhidlərinin xatirəsinə peşəkar boks gecəsi təşkil olunub

Bakıda Azərbaycan Peşəkar Boks Federasiyası Komissiyasının dəstəyi və "Karapapak Fight Club and Promotion"un təşkilatçılığı ilə Aprel döyüşləri şəhidlərinin xatirəsinə həsr olunmuş peşəkar boks gecəsi keçirilib. Qonaqlar arasında Azərbaycanın Milli Qəhrəmanı, general-polkovnik Polad Həşimovun qardaşı, şəhid ailələrinin övladları və qazilərimiz yer alıblar.

Gecədə müxtəlif çəki dərəcələri üzrə 10 döyüş təşkil olunub. Gərgin idman mübarizəsi şəraitində keçən yarışda Kənan Hüseynəliyev (53,5 kq), Rauf Ağayev, Nihat Abdullayev (hər ikisi 57 kq), Şamil Əsgərov (59 kq), Seymur İsayev (63,5 kq), İsmət Eynullayev (79,4 kq), Malik Məmmədzadə, Elnur Məmmədov, Taryel Cəfərov (hər üçü 91 kq) və Kazım Umudov (ağır çəki) qələbə qazanıblar.

Qeyd edək ki, bu, 2022-ci ildə komissiyanın dəstəyi ilə keçirilən sayca 4-cü peşəkar boks gecəsidir.

## Vətən müharibəsi şəhidinin xatirəsinə keçirilən turnirə yekun vurulub



Bakı Şəhər Gənclər və İdman Baş İdarəsində (BŞGİBİ) Vətən müharibəsi şəhidi Ömər Rəhimlinin xatirəsinə həsr olunan onlayn şahmat turnirinin qaliblərinin mükafatlandırılması mərasimi keçirilib. Tədbirdə Ömər Rəhimlinin atası Rəşad Rəhimov, Baş İdarənin rəisi Raqif Abbasov, Nəsimi rayon Gənclər və İdman İdarəsinin rəisi Şahmar Tağıyev, sektor müdiri, paytaxtın şahmat idman növü üzrə koordinator-kuratoru Gündüz Vəliyev, şəhidin sərbəst güləş üzrə məşqçisi olmuş Cavidan İsmayılzadə, turnirin baş hakimi Fidan Talıbova iştirak ediblər.

Əvvəlcə Vətən müharibəsində həlak olan şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

R.Abbasov Vətən uğrunda canlarını fəda edən bütün şəhidlərimizin xatirəsinin xalqımızın qəlbində yaşayacağını bildirib. İgid oğul böyütdükləri üçün şəhidin ailəsinə minnətdarlıq edən R.Abbasov qeyd edib ki, bu cür turnirlərin keçirilməsində əsas məqsəd şəhidlərimizin xatirəsini əbədiləşdirmək, onların şərəfli həyat yolunu təbliğ etməkdən ibarətdir.

Şəhid Ömər Rəhimlinin atası R.Rəhimov idmançılara uğurlar arzulayıb, övladının xatirəsinin əziz tutulmasına görə minnətdarlığını bildirib.

Oğlanların yarışında Allahverdi Həmidov birinci olub. İsmayıl Süleymanlı yarışı ikinci, Məmməd Məmmədzadə isə üçüncü pillədə başa vurublar. Qızların mübarizəsində Aytac Məmmədova, Məryəm Ağaverdiyeva və Səlbinaz İsmayılova ilk üçlükdə yer alıblar.

Sonda qaliblər Baş İdarə tərəfindən medal və xatirə diplomları ilə mükafatlandırılıblar.

Şəhid Ömər Rəhimli "Şuşanın azad olunmasına görə" və "Laçının azad olunmasına görə" medalları ilə təltif olunub.

## "Şahin"lərin şəhər birinciliyi keçirilib

Sumqayıt Şəhər Gənclər və İdman Baş İdarəsinin və şəhər Təhsil Şöbəsinin birgə təşkilatçılığı ilə Təbiət Elmləri Təmayüllü Gimnaziyanın idman meydançasında "Şahin" hərbi-idman oyunu üzrə şəhər birinciliyi keçirilib.

Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, ölkəmizin ərazi bütövlüyü uğrunda canından keçmiş şəhidlərimizin ruhu bir dəqiqəlik sükutla yad edilib.

Ümumilikdə 12 ümumtəhsil müəssisəsinin mübarizə apardığı şəhər birinciliyini giriş sözü ilə açan şəhər Gənclər və İdman Baş İdarəsinin rəisi Elgün Hümbətov Müzəffər Ali Baş Komandan, ölkə başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə rəşadətli ordumuzun 44 günlük Vətən müharibəsində göstərdiyi şücaətlərdən danışıb. O, "Şahin" hərbi-idman oyununun gənclərin və yeniyetmələrin vətənpərvərlik və vətəndaşlıq tərbiyəsində, o cümlədən, hərbi xidmətə həvəsləndirilməsində və ordu sıralarına hazırlığında önəmli rolu olduğunu qeyd edib.

Daha sonra çıxış edən Təbiət Elmləri Təmayüllü Gimnaziyanın direktoru Nizami Əhmədov ölkəmizdə və şəhərimizdə gənclərin vətənpərvərlik və vətəndaşlıq tərbiyəsinin inkişaf etdirilməsi istiqamətində həyata keçirilən tədbirlərin müstəsna əhəmiyyətindən bəhs edib, birincilikdə iştirak edən komandalara uğurlar arzulayıb.

Gərgin və maraqlı keçən yarışın sonunda Təbiət Elmləri Təmayüllü Gimnaziya birinci yerə layiq görülüb. İnternat tipli gimnaziya ikinci, 5 və 17 saylı tam orta məktəbin komandaları isə eyni bal toplayaraq III yerə sahib çıxıb.

* * *

Gəncə Şəhər Gənclər və İdman Baş İdarəsinin təşkilatçılığı ilə N saylı Hərbi Hissədə "Şahin" hərbi-idman oyunu üzrə Gəncə şəhər birinciliyi keçirilib. Yarış şəhərin ümumtəhsil məktəblərinin 8-10-cu sinif şagirdlərindən ibarət 44 komandanın iştirakı ilə təşkil olunub.

Yarışın açılış mərasimi hərbi orkestrin ifasında Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başlayıb. Daha sonra Vətənimizin ərazi bütövlüyü uğrunda canlarından keçmiş qəhrəman şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Gəncə Şəhər Gənclər və İdman Baş İdarəsinin rəisi Həmid Nəsirov, N saylı hərbi hissənin ideoloji iş və mənəvi -psixoloji təminat bölməsinin rəisinin baş köməkçisi Zaur Əliyev və şəhər Təhsil İdarəsinin müdiri Anar Qədiməliyev çıxış edərək "Şahin" hərbi-idman oyunlarının gənclərin vətənpərvərlik tərbiyəsində müstəsna əhəmiyyəti olduğunu qeyd ediblər.



Hərbi-idman tədbirində məktəblilərin 5 mərhələdə sıra, mülki müdafiə, fiziki hazırlıqları, manelərin dəf olunması və komanda qərargahı çadırının qurulması üzrə bacarıqları yoxlanılıb.

"Şahinlər" hərbi-idman oyunlarının təşkil olunmasında məqsəd ümumtəhsil müəssisələrində şagirdlərin vətənpərvərlik tərbiyəsi üzrə aparılan işlərin daha intensiv xarakter almasına, bu sahədə həyata keçirilən tədbirlərin davamlılığının təmin olunmasına, şagirdlərdə fəal vətəndaş mövqeyi və doğma torpağa sədaqət hissinin formalaşdırılmasına nail olmaqdan ibarət olub.

## Avropa çempionatında 11 cüdoçumuz təmsil olunacaq

Aprelin 29-da Bolqarıstanın paytaxtı Sofiyada cüdo üzrə Avropa çempionatı start götürəcək. 3 gün davam edəcək yarışda 40 ölkədən 365 (209 kişi, 156 qadın) cüdoçu iştirakını təsdiqləyib. Yarışda Azərbaycan cüdoçuları da qüvvələrini sınayacaqlar. Komandamız Sofiyada 11 (9 kişi, 2 qadın) 2 cüdoçu ilə təmsil olunacaq.

REDAKSİYANIN POÇTUNDAN

## Astaralı idmançıların növbəti uğuru

Balaxanı İdman Mərkəzində IFK kyokuşin karate üzrə uşaqlar, yeniyetmələr, gənclər və böyüklər arasında keçirilən ölkə kubokunda Astaralı idmançılar uğurla çıxış ediblər. Abşeron rayon Gənclər və İdman İdarəsi, eləcə də IFK Kyokuşin Karate Təşkilatının birgə təsdiq etdikləri əsasnaməyə uyğun olaraq keçirilən yarışda rayonu təmsil edən idmançılardan Aqşin Məmmədov, Süleyman Abbasov, Namiq Məmmədov, Məhəmmədəli Məmmədov birinci yerə layiq görülüblər. Bayraməli Məmmədov, Cəbrayıl Rzayev ikinci, Əli Nurizadə isə üçüncü yerə sahib çıxıb.

Qeyd edək ki, karateçilər bu yarışda Astara rayon "Seiken" Kyokuşin Kenbukay Karate klubunun məşqçisi, II dan qara kəmər ustası Azər Ağazadənin rəhbərliyi altında iştirak ediblər.

* * *



Masallı şəhərində yerləşən şəhid İntiqam Əsgərli adına 3 saylı tam orta məktəbin idman meydançasında Vətənin müdafiəsinə hazıram poliatlon çoxnövçülüyü üzrə rayon birinciliyi keçirilib. Rayon Gənclər və İdman İdarəsi və Təhsil şöbəsinin təşkilatçılığı ilə keçirilən yarış rayon tam orta ümumi təhsil məktəblərinin X-XI sinif şagirdləri arasında baş tutub.

Çağırışçı gəncləri Vətənin müdafiəsinə mənəvi, fiziki cəhətdən hazırlamaq, onlarda doğma yurda, torpağa məhəbbət və vətənpərvərlik hissini aşılamaq, eləcə Vətənin Müdafiəsinə Hazıram poliatlon çoxnövçülüyünü yeniyetmə və gənclər arasında təbliği, rayon çempionunu müəyyən etmək məqsədini daşıyan yarışda rayonun 13 tam orta məktəbindən 65 şagird iştirak edib.

Komandlar yarışda 100 və 2000 metr məsafəyə qaçış, turnikdə dartınma, qumbara atmaq idman növlərində təmsil olunublar. Yarışın qalibi adını ən yüksək xal toplayan Çaxırlı kənd tam orta məktəbin komandası qazanıb. Bədəlankənd tam orta məktəbin şagirdləri ikinci yerə sahib çıxıblar. Ərkivan qəsəbəsi Z.Nəcəfov adına 2 saylı tam orta məktəbin və şəhər 3 saylı İ.Əsgərli adına tam orta məktəbin komandaları isə müvafiq olaraq, üçüncü yeri tutub. Qalib komandalar qazandığı nəticələrə görə Masallı rayon Gənclər və İdman İdarəsinin diplomları ilə mükafatlandırılıblar.

Yarışda iştirak edən daha 4 komanda isə fərqlənmə diplomu ilə təltif olunub.

* * *

"Təhsil" Respublika İdman Mərkəzinin təşkilatçılığı ilə ulu öndər Heydər Əliyevin anadan olmasının 99-cu ildönümünə həsr olunmuş mini futbol üzrə zona birinciliyi keçirilib. 2011-2012-ci illər təvəllüdlü oğlanlar arasında keçirilən turnir Masallı şəhərindəki "Viləş" mini futbol stadionunda təşkil olunub. Yarışlarda Masallı futbolçuları ilə yanaşı, Lənkəran, Astara, Lerik, Cəlilabad, Biləsuvar, Neftçala və Salyan rayonlarının idmançıları da iştirak ediblər.

Gərgin mübarizə şəraitində keçən turnirin finalına yüksələn Masallının UGİŞM komandası həlledici oyunda Cəlilabad futbolçularını 2:0 hesabı ilə məğlub edərək zona birinciliyinin qalibi olub. Masallı və cəlilabadlı idmançılar bu ilin may ayında 12 komandanın iştirakı ilə keçiriləcək respublika yarışların final mərhələsinə vəsiqə qazanıblar.

Qalib komandalar həmçinin "Təhsil" Respublika İdman Mərkəzinin müvafiq diplomları ilə mükafatlandırılıb.

*Zəfər Orucoğlu,*
*Azərbaycan Jurnalistlər Birliyinin üzvü*

# Ultra-müasir futbol



*Mobil İSMAYILOV*

Belə deyirlər ki, keçmişlə yaşamaq olmaz, daim irəliyə baxmaq lazımdır. Bu, futbola da aiddir.

İndi XXI əsrdir. Hər şey modernləşir. Elə futbol da. Təbii ki, futbolda uğurun formulları da modernləşir. Hazırda artıq futbolun konstruksiyaları, uğurun şərtləri də ultra-müasir futbola uyğunlaşır. Bura hansı şərtlər daxildir? Onlardan danışacağıq. Amma gəlin, əvvəlcə necə deyərlər, futbolun qrammatikasına ötəri toxunaq.

## Futbolun qrammatikası

Çox sevilən idman növü olan futbol oyunu artıq dərindən işlənilmiş, uzun illərin praktikasından keçmiş baza prinsiplərinə əsaslanır. Yəni, məsələn, futboldan anlayışı olanlar bilirlər ki, hər dəfə oyun mərkəzdən başlanır. Aut necə atılır, oyundan kənar vəziyyət necə müəyyən edilir, futbolçuların əvəz olunması hansı qaydada həyata keçirilir və sairə. Bütün bunlar birdəfəlik müəyyən edilmiş qaydalardır. İndi futbolsevərlər, azarkeşlər bu oyunun sirlərini, incəliklərini az qala təcrübəli məşqçilər, peşəkar mütəxəssislər, hakimlər qədər bilirlər. Hər şey öyrənilib, sistemləşdirilib. Elə şahmatda olduğu qədər. Qrosmeyster hansı debütlərə (başlanğıclara), hansı oyun üslubuna, strategiya və taktika əsaslarına üstünlük verdiyi kimi futbol komandalarının da oyun stili formalaşır. Keçid hücumlarını sevən, mərkəz hücumlarına bel bağlayan, standart vəziyyətlərdən yararlanma variantlarına arxalanan, kollektiv oyuna güvənən futbol komandaları vardır. Hansı yaxşıdır? Bu suala heç vaxt dəqiq, obyektiv, deməli, həm də düzgün cavab vermək mümkün deyildir. Seçimlər, variantlar həmişə olub və olacaq. Baxır, hansı komanda hansı oyun tərzindən, stil və metodlardan istifadə edib uğur qazanmağı planlaşdırır. Əslində konkret rəqibdən, vəziyyətdən asılı olaraq baş məşqçinin köməkçiləri daha çox bu proseslərlə məşğul olurlar.

## Futbol romantizmi və klassik futbol

Futbol romantizminin mövcud olduğu dövrlərdə - keçən əsrin 60-cı, 70-ci illərində bütün komanda ilə tam müdafiəyə çəkilmək qəbul olunmurdu və pis qarşılanırdı. Klassik futbolsevərlər, futbolla yaşayanlar stadionlara hücum futboluna baxmağa gələrdilər. Futbol tarixi üçün şedevr nümunələri sayıla bilən oyunların, qolların əksəriyyəti də məhz həmin dövrlərə təsadüf edir. Eləcə də müstəsna nüfuz sahibi olmuş futbolçular da. İstedadın miqyası baxımından əvəzsiz, təkrarsız futbolçular... Əbəs yerə hərdən demirlər ki, indiki bəzi ulduz adlandırılan futbolçular Maradonanın "əlinə su tökməyə belə yaramırlar". Yaxud, dünya futbolunun əfsanələri - Pele, Eysebio, Kruif, Maldini, Rud Qullit... Siyahının davamını gətirməyə ehtiyac görmürəm. Və məqsədim də bu deyildir. Onsuz da daha kimləri nəzərdə tutmağımı futbolsevərlər yaxşı bilirlər. Hər bir halda onlar tükənməz enerji sahibləri olublar. Həmin futbol əfsanələri futboldan zövq alanlara o qədər gözəl anlar bəxş ediblər ki. Onlar fırtına qoparanlar, meydanın qazonunu göyə sovuranlar olub. Bu adlar ən yüksək mərtəbəyə layiq olanlardır. Onlar dünya futbolunda əbədi yaşamaq hüququ qazananlardır. Nəhayət, onlar futbolun qrammatikasını, necə futbol oynamağın kitablarını yazanlardır. Onlar əbədi futbol mövzularıdır. Ona görə də bu gün də danışılır, hələ də yazılır, araşdırmalar, təhlillər aparılır.

O illərdə də, sonralar da Braziliya yığması heç vaxt müdafiə olunmağı düşünməyib. Bu ölkənin futbol fəlsəfəsində müdafiə olunmaq anlayışı həmişə arxa plana keşib. Əslində elə indi də belədir. Bu millinin oyunlarına baxanda, tamaşaçıya elə gəlir ki, futbolçular müdafiə olunmağı sanki özlərinə sığışdırmırlar. Təsadüfi deyildir ki, bu ölkənin pərəstişkarları hər yanda çoxdur. Azarkeşlərin Braziliya yığmasına həmişə xüsusi rəğbəti olub. Bu, açıq-aydın hiss olunur. Braziliyalılar öz himnini elə bərkdən oxuyurlar ki, onlara sanki oyundan əvvəl ilham və enerji gəlir.




Vaxtı ilə SSRİ çempionatında yalnız bir mövsüm belə bir eksperiment aparıldı. Danışılmış oyunların və çoxsaylı maraqsız heç-heçələrin qarşısını almaqdan ötrü hər bir komanda üçün 8 heç-heçə limiti müəyyən edildi. Limit bitdikdən sonra oyunda əgər heç-heçə qeydə alınırdısa, nəticə ləğv olunur və qapılara 11 metrlik cərimə zərbələri təyin edilirdi. Qalib komandaya 1 xal verilir, məğlub komanda xalsız qalırdı.

İndi müdafiə xəttini gücləndirməyə komandalar daha çox diqqət yetirirlər. Sanki bir neçə eşalondan ibarət sədd qururlar. Bu cür müdafiə xəttini yarmaq üçün parlaq simalı hücumçular olmalıdır. Belə hücumçuları da bağlayanda digər xətt futbolçuları oyunu öz üzərlərinə götürməlidir. Bəzən oyun ərzində müdafiə olunan komanda sonda qalib gəlir. Bəli, bu futboldur.



2013-cü ildə "Çelsi"nin baş məşqçisi Joze Mourinyo "Vest Hem"lə "0:0" hesabı ilə bitən oyundan sonra bildirmişdi: "Rəqib komanda oyun ərzində yalnız müdafiəyə qapandı. Meydanda ancaq bir komanda oynamaq istəyəndə, futbol çətin olur. Bu qarşılaşmada onların xal qazanmağa ehtiyacı var idi və buna görə də müdafiə olunurdular. Amma bu, Premyer Liqa oyunu deyil. Bu 19-cu əsrin futboludur."

Mütəxəssislərin isə fikirlərə münasibəti belə oldu ki, hər halda "Vest Hem" özünə lazım olan bir xalı qazandı. Necə deyərlər, nəticə oyunun güzgüsüdür.

Sırf hücum futboluna güvənən və bu stilə vərdiş edən komandalar da var. Bu baxımdan "Barselona"ya həmişə böyük rəğbət olub. Kataloniya klubu nəinki müdafiə olunmağı sevmir, əslində etibarlı müdafiədə çətinlik çəkir. Komanda hücuma o qədər aludə olur ki, müdafiə xəttini nizamlaya bilmir. Artıq neçə illərdir ki, belədir. Hətta ortabab komandalar da əks-hücumlarda "Barselona"ya qol vurur. Etibarlı müdafiəni tam təmin edə bilməyən "Mançester Siti"nin oyun stili də kataloniya klubu ilə demək olar ki, oxşardır. "Real", "Yuventus", "Bavariya", "Liverpul", "Mançester Yunayted" kimi nəhəng klublar da həmişə hucum futboluna üstünlük veriblər. Ona görə də azarkeşlər həmişə bu komandaların oyunlarından ayrılmaq istəməyiblər. "Çelsi" isə hücum və müdafiə futbolunu uğurla nizamlamağı bacaran komanda kimi səciyyələndirilir. Üstəlik "Real" keçdiyi heyrətamiz tarixə görə möhtəşəm klubdur. "Liverpul" hazırda ən kompakt bir komandadır. Ona görə də super ulduzlar öz karyeralarını belə komandalarda davam etdirmək istəyirlər. Elə komandalar da var ki, titulları olmasına baxmayaraq oyunları darıxdırıcı, bəzən də hətta cansıxıcı olur. Məsələn, Madrid "Atletiko"su. Müdafiə üslubunu sevən bu komanda son vaxtlar tez-tez tənqid olunur.

## Ultra - müasir futbol nədir?

Tədricən yeni futbol istiqamətlərinin təməl daşları qoyulmağa başladı. Dünya futbolunun zirvələri formalaşmaqda davam edirdi. Mütəxəssislər də ultra-müasir futboldan danışmağa başladılar. Burada dərhal futbolçunun indeksi və ampulası anlayışları diqqət mərkəzinə düşür. Futbol dünyasının ən tanınmış simalarının öz indeksləri olub və indi də belədir. Bəs, superulduzların indeksinə nələr daxildir: Xüsusi istedad, yüksək fiziki hazırlıq, inam, əzmkarlıq, inanılmaz texnika, əla qol vurmaq bacarığı, futbola olan sevgi, daha çox istəkli olmaq, futbol ehtirası. Bu parametrlər dahi futbolçuların indeksini müəyyən edir. Belələri futbolda yeni eralar açanlardır. Elə futbolçular var ki, top sanki onlara tabe olur, necə deyərlər bir sözünü iki eləmir. Belə futbolçular topla sanki oyun çıxarırlar. Kovboylar vəhşi buğaları, atları ram etdiyi kimi top da elə bil öz-özünə futbolçulara itaət edir, onların futbol istedadına baş əyir. Top da sanki belələrinin bacarığını hiss edir. Yadınızdadırmı, kənardan elə görünürdü ki, top braziliyalı Ronaldonun ayağına yapışıb. Onun topu özündə saxlaması çox mükəmməl idi. Braziliyalı hücumçudan topu almaq rəqib oyunçulara çətinlik törədirdi. Buna görə də əksər hallarda ona qarşı qaydanı pozurdular. Ronaldonun istedadı unikal idi. Dinamik plastik hərəkətlərə malik olan bu futbolçu Tanrının ona bəxş etdiyi bacarığı ilə azarkeşləri məftun edir, onlara az qala bədii həzz verirdi.

Futbolçunun "ampulasını" necə başa düşmək olar? Bu, o deməkdir ki, konkret futbolçunun hansı mövqedə, hansı xəttdə oynaması əvvəlcədən bəlli olur və bu istiqamətdə də həmin futbolçu tədricən formalaşıb püxtələşir. Elə futbolçular da vardır ki, onlar universal ampulaya malikdirlər. Yəni onların oyunu hər xəttdə, meydanın hər yerində alınır və istənilən mövqedə özlərini uğurla göstərə bilirlər. Məsələn, Maldini, Nedved, Roberto Karlos, Pike, Serxio Ramos, Mandzukiç, Modriç, Milner, Bernardo Silva, Marselo və başqaları. Belə futbolçular zəhmətkeş, çalışqan, cəsarətli olurlar. Müasir futbolda hücumçular yarımmüdafiəçilərin və müdafiəçilərin köməyinə gəlməlidirlər. Əslində bu, həmişə olub. İndiki futbol isə artıq bu zərurəti mütləq qaydada tələb edir. Futbolda bütün oyun ərzində ritmi saxlamaq, yəni 90 dəqiqə eyni ritmdə oynamaq futbolçudan böyük bacarıq, ustalıq tələb edir.

Beləliklə, müasir futbolun modernləşməsi nə deməkdir? Bu proses yuxarıda şərh olunanlar da nəzərə alınmaqla hansı planlar üzrə həyata keçirilir?

Birincisi - başa çatmış hər oyunun dərindən təhlil edilməsi, növbəti oyunu təkmilləşdirmək üçün tədbirlərin görülməsi. Bununla da komandanın zəif tərəfləri, buraxılan səhvlər dərhal üzə çıxacaqdır. Gələcəkdə hansı xəttlərin aktivləşdirilməsi zərurəti göz qabağında olacaqdır. Bütün bunlar komandanın oyundan-oyuna uğurlu çıxış etməsinə kömək edəcəkdir. Eyni qaydada təhlil rəqib komanda ilə bağlı da aparılmalıdır. Baş məşqçinin köməkçilərinin əllərində olan kompyuterlə iş sistemi daha da gücləndirilməlidir. Təbii ki, bu, həm də komandada çalışan futbol analitiklərinə aid olan sahədir. Eyni zamanda bu istiqamətlərdə daha çox effekt verən metodlar axtarılıb tapılmalıdır.

İkincisi - ümumiyyətlə, idmanda uğurun sirri motivasiyadır, o cümlədən futbolda da. Və üstəgəl futbolçuların bir-birini anlaması. Qələbə qazanmaq üçün həm də istək və məqsəd olmalıdır. Oyundan əvvəl necə deyərlər, personalın əhval-ruhiyyəsini qaldırmaq çox vacibdir. Baş məşqçi bu barədə həmişə fikirləşməlidir. Axı, futbolçular da, köməkçilər də, komandada kimlər varsa, hamısı insandır. Futbolçu indiki rəqabətdə daim heyətdə özünə yer görməlidir. Müntəzəm olaraq çalışmalı, hətta inadkarlıq göstərməlidir. Hər gün məqsəd naminə həvəslə çalışan futbolçuda özünə əminlik yaranır və o, növbəti oyuna hazır olur. Müasir futbolda hərtərəfli çalışmasan, heç nə əldə etmək mümkün deyildir. Çalışanlar isə öz zəhmətinin qarşılığını alır. Futbolçu hiss etməli və əmin olmalıdır ki, komandada ona güvənirlər. Əsas heyətdə oynayan futbolçu daim bu düşüncələrlə meydana çıxmalıdır. Belə olan halda da komanda gücünü cəmləşdirib ancaq qələbə haqqında fikirləşməlidir.

*(ardı var)*

# FUTBOL

## "Sabah"ın qolu "Neftçi"yə 3 xal qazandırdı

*Futbol üzrə Azərbaycan Premyer Liqasında XXIII turun oyunları keçirilib. Turun açılış oyununda "Sumqayıt" klubu Qəbələdə eyniadlı komandanın qonağı olub. Şəhər stadionundakı görüş 1:1 hesablı heç-heçə ilə yekunlaşıb. Matçda hesabı 17-ci dəqiqədə "Sumqayıt"ın futbolçusu Araz Abdullayev açıb. Əyalət təmsilçisi 88-ci dəqiqədə İsnik Aliminin cərimə zərbəsindən vurduğu qolla məğlubiyyətdən xilas olub.*



İlk hissədə qonaqların müdafiəçisi Camaləddin Xocaniyazov zədələnərək Rüfət Abdullazadə ilə əvəzlənib.

"Qəbələ" Premyer Liqada ardıcıl üçüncü oyundur qələbə qazana bilmir. Əyalət təmsilçisi müvafiq olaraq "Keşlə" (indiki "Şamaxı") ilə heç-heçə (1:1), "Səbail"ə isə məğlub olub (3:0).

Bu nəticədən sonra xallarını 35-ə çatdıran "Qəbələ" dördüncü pillədəki mövqeyini qoruyub. On beş xalı olan "Sumqayıt" isə 7-ci sırada yer alıb.

Turun ikinci oyununda çempionatın lideri "Qarabağ" klubu "Şamaxı" komandasını qəbul edib. "Azersun Arena"da keçirilən qarşılaşma Ağdam təmsilçisinin 8:0 hesablı qələbəsi ilə başa çatıb. Bu nəticə cari mövsümdə Premyer Liqada ən böyük hesablı qələbə olub.

Oyundan əvvəl "Qarabağ" klubunun kapitanı Maksim Medvedev mükafatlandırılıb. Ağdam klubunun heyətində 500-cü oyununu keçirən 33 yaşlı futbolçuya "Şamaxı" ilə matçdan əvvəl hədiyyə verilib. "Qarabağ"ın baş meneceri Asif Əsgərov təcrübəli müdafiəçiyə üzərində 500 rəqəmi yazılmış forma təqdim edib.

Bu qələbədən sonra xallarını 55-ə çatdıran "Qarabağ" turnir cədvəlində liderliyini möhkəmləndirib. İyirmi xalı olan "Şamaxı" isə 6-cı sırada qərarlaşıb.

Turun növbəti oyununda "Zirə" klubu "Səbail"i qəbul edib. Zirə İdman Kompleksinin stadionunda oynanılan qarşılaşma meydan sahiblərinin 2:1 hesablı qələbəsi ilə yekunlaşıb.

Matçın 32-ci dəqiqəsində Hamidu Keyta hesabı açıb. İyirmi səkkiz yaşlı fransalı yarımmüdafiəçi iki dəqiqə sonra penaltini dəqiq yerinə yetirməklə özünün və komandasının ikinci qoluna imza atıb. Qarşılaşmanın 90+4-cü dəqiqəsində Nikolas Raysel penaltidən təsəlli qolunu vurub.

Qələbə sayəsində xallarının sayını 39-a çatdıran "Zirə" 3-cü pillədə qərarlaşıb. "Dənizçilər" 14 xalla sonuncu - 8-ci yerdədir.



Tura "Neftçi" və "Sabah" komandalarının oyunu ilə yekun vurulub. "Bakcell Arena"da keçirilən qarşılaşma meydan sahiblərinin 1:0 hesablı qələbəsi ilə yekunlaşıb. "Sabah"ın heyətində Bəxtiyar Həsənalızadə 5-ci dəqiqədə avtoqol müəllifi olub.

Qələbə sayəsində xallarının sayını 44-ə çatdıran "Neftçi" ikinci, 32 xalı olan "Sabah" isə 5-ci pillədə qərarlaşıb.

## "Şamaxı" klubunun yeni baş məşqçisi açıqlandı

"Şamaxı" klubu baş məşqçi Sənan Qurbanovun istefasını qəbul edib. Klub rəhbərliyinin qərarı ilə bu vəzifənin icrası Rüstəm Əliyevə tapşırılıb. Komandanın sabiq futbolçusu Rail Məlikov isə "Şamaxı-2"nin baş məşqçisi olub.




Qeyd edək ki, Sənan Qurbanov "Qarabağ"a 0:8 hesabı ilə uduzduqları Azərbaycan Premyer Liqasının XXIII turunun oyunundan sonra istefa verib. Rail Məlikov "Neftçi"yə 1:2 hesabı ilə uduzduqları XXII turun matçından əvvəl karyerasını bitirib.

## Azərbaycanda VAR sistemi sınaqdan keçirilib

Azərbaycan Premyer Liqasında tətbiqi nəzərdə tutulan VAR (Video Assistant Referee) sistemi ilk dəfə olaraq test rejimində sınaqdan keçirilib.



"ASK Arena"da keçirilmiş Azərbaycan U-17 - "Şamaxı" U-19 qarşılaşmasının baş hakimi Fərid Hacıyev olub.

Video Köməkçi Hakim funksiyasını isə Elçin Məsiyev və Kamal Umudlu yerinə yetirib.

Qeyd edək ki, FIFA-nın müvafiq tələbinə uyğun olaraq, VAR sistemi rəsmi oyunlarda tətbiqindən əvvəl test rejimində sınaqdan keçirilməlidir.

## Premyer Liqada yeni qalmaqal

2015-2020-ci illərdə İngiltərə Premyer Liqasının ən azı 15 futbolçusu antidopinq qaydalarını pozub. "Daily Mail" nəşrində yer alan xəbərə görə, onlar qadağan olunmuş maddələrlə bağlı testlərdən keçə bilməyiblər. Oyunçulardan heç biri diskvalifikasiya olunmayıb. İddiaya görə, analiz nəticələri müsbət çıxmış 15 futbolçudan 12-nin orqanizmində fiziki gücü artıran maddələr aşkarlanıb. Bu işlərdən biri ilkin olaraq hələ də araşdırılır. Hələlik futbolçulara qarşı heç bir sanksiya tətbiq edilməyib.

## İlkin təsnifat üçün daha 4 klub müəyyənləşib

Çempionlar Liqasının 2022/23 mövsümünə I təsnifat mərhələsindən başlayacaq daha 4 klubun adı bəlli olub.

Bu komandalar hələ bəlli olmayan Azərbaycan çempionunun qitənin ən nüfuzlu klub turnirində mümkün rəqibləridir.

"Slovan" Slovakiyada, "Linkoln" Cəbəllütariqdə, "Zrinski" Bosniya və Herseqovinada, "Ludoqorets" Bolqarıstanda çempion titulunu qazanıb. Ölkə çempionatında qazanılan qızıl medallar onları Çempionlar Liqasının I təsnifat mərhələsinə yüksəldib.

Yeni komandaların bura vəsiqə qazanması səbətlərin tərkibinə də təsir edib. Bolqarıstan və Slovakiya çempionları səpələnmişlər səbətinə daxil olub. Digər iki yeni komandanın səbəti dəqiqləşməyib. Əvəzində Latviya təmsilçisi RFS səpələnməmişlər sırasında ikinci komanda olub.

Bununla da mərhələdə iştirakı dəqiqləşənlərin sayı 15-ə çatıb. Onlardan 6-sı, həmçinin Yunanıstanda qızıl qazanacaq komanda səpələnmiş, 2-si səpələnməmişlərdən olacaq.

Azərbaycan çempionu hələ rəsmiləşmədiyindən hansı səbətdə yer alacağı bəlli deyil.

**Çempionlar Liqası**

***I təsnifat mərhələsi***

*Səpələnmişlər*

"Malmö" (İsveç)
"Lüdoqorets" (Bolqarıstan)
"Bodo Qlimt" (Norveç)
"Slovan" (Slovakiya)
HİK (Finlandiya)
TNS (Uels)
Yunanıstan çempionu

*Səpələnməmiş*

RFS (Latviya)
"Dinamo" (Batumi, Gürcüstan)

***Qeyri-müəyyənlər***

"Jalgiris" (Litva)
"Linkoln" (Cəbəllütariq)
"Şemrok Rovers" (İrlandiya)
"Zrinski" (Bosniya və Herseqovina)
"Şaxtyor" (Belarus)
"Klakskvik" (Farer adaları)
"Tobol" (Qazaxıstan)

## Bir cümlə, bir xəbər

- Aprelin 20-də Azərbaycan kubokunda yarımfinalın ilk oyunlarında "Qəbələ" "Qarabağ"ı, "Zirə" isə "Neftçi"ni qəbul edəcək.

- "Real"ın hücumçusu Kərim Benzema La Liqanın 32-ci turunda "Sevilya" ilə matçda (2:3) 217-ci qolunu vuraraq, klub tarixində ən çox qol vuran futbolçular arasında Alfredo di Stefanonu qabaqlayıb və üçüncü olub.




- Niderland kubokunda final qarşılamasında PSV "Ayaks"a 2:1 hesabı ilə qalib gələrək tarixində 10-cu dəfə bu titula yiyələnib.



- Mayın 14-də İngiltərə kubokunun finalında "Çelsi" "Liverpul"la qarşılaşacaq.

- "Mançester Yunayted"in hücumçusu Kriştianu Ronaldo İngiltərə Premyer Liqasında bu mövsümün sonuna qədər vurduğu hər əlavə qola görə də 120 min avro alacaq.

- Madrid "Atletiko"su "Marsel"in futbolçusu Bubakar Kamara ilə 4 illik müqavilə imzalamağa hazırlaşır.



- "Bavariya"nın hücumçusu Robert Levandovski komandanın baş məşqçisi Yulian Naqelsmannın seçdiyi iş üsulları və matçlar üçün taktikadan narazıdır.

- "Milan"ın futbolçusu Zlatan İbrahimoviç komandası qızıl medalları qazansa, Zlatan A seriyası təmsilçisi ilə vidalaşaraq karyerasına da son qoyacaq.



Dünya-i idmanı

# Dünyanın ən titullu idmançısı karyerasını başa vurdu



Dünyanın ən titullu idmançısı hesab edilən ABŞ atleti Ellison Feliks karyerasını başa vurub. 37 yaşlı sprinter bu barədə sosial şəbəkə hesablarında yazıb. Feliks Yay Olimpiya Oyunlarındakı qızıl medalların sayına görə dünya rekordçusudur. O, 2008, 2012, 2016 və 2021-ci illərdə keçirilən Olimpiya Oyunlarında 4x100 m və 4x400 m estafetlərdə, həmçinin 200 metr məsafəyə fərdi yarışlarda 7 qızıl medal əldə edib. Atletin ümumilikdə 11 olimpiya medalı var.

Feliks dünya çempionatlarında ümumilikdə 18 medal əldə edib ki, bunlardan 13-ü qızıldır.



# “Barselona”lı futbolçu “Ferrari”sini çox sevir

İspaniyanın “Barselona” klubunun futbolçusu Samuel Umtiti məşq bazasının yaxınlığında qalmaqalla üzləşib. 29 yaşlı müdafiəçi hazırlıq prosesindən çıxarkən azarkeş kütləsi ilə üz-üzə gəlib. Fransalı oyunçu “Ferrari” markalı avtomobilinin pəncərəsindən avtoqraf verib. Həmin vaxt azyaşlı uşaqlardan biri maşının pəncərəsinə vuraraq futbolçunun diqqətini cəlb etməyə çalışıb. Bu, Umtitinin qəzəblənməsinə səbəb olub. O, uşağa avtomobilə toxunmamalı olduğunu söyləyib: “Maşına toxunma, mən onsuz da səni görürəm”. Bu hadisədən sonra müdafiəçi oradan uzaqlaşıb və həmin uşağa avtoqraf verməyib. Qeyd edək ki, Samuel Umtiti cari mövsüm “Barselona”nın heyətində cəmi bir oyunda meydana çıxıb.

# İngilislər Avrokuboklarda favorit hesab olunurlar

Avrokubokların 1/4 final mərhələsindən sonra favoritlər açıqlanıb.

Bukmeker kontorları Çempionlar Liqası, Avropa Liqası və Konfrans Liqasının yarımfinalçılarının kubok qazanmaq əmsallarını müəyyənləşdirib. Avropanın daha nüfuzlu iki turnirində müvafiq olaraq “Liverpul” və “Leypsiq” favorit sayılır. Konfrans Liqasında isə “Lester”lə “Roma” şanslı sayılır. Maraqlıdır ki, Çempionlar Liqasını ən çox qazanan “Real”ın zəfər çalmaq əmsalı kifayət qədər yüksəkdir.

# Böyük Britaniya komandasının Olimpiya medalı geri alınır



Böyük Britaniya komandası Tokio-2020 Yay Olimpiya Oyunlarında qazandığı gümüş medallardan birini təhvil verəcək. 4x100 metr məsafəyə estafet yarışında ikinci yeri tutan Çicindu Ucanın nəticəsi ləğv olunub.

Buna 28 yaşlı atletin antidopinq qaydalarını pozması səbəb olub. Belə olan halda gümüş medal Kanadaya, bürünc medal isə Çinə verilib. Bu, medal sıralamasında hər hansı dəyişikliyə səbəb olmayıb.

Böyük Britaniya Olimpiya Komitəsi qərardan narazı qalsa da, buna hörmətlə yanaşdığını açıqlayıb.


olimpnews.az - sizin saytınız





# Ronaldo daha bir kluba sahib oldu

Keçmiş braziliyalı hücumçu, ikiqat dünya çempionu Ronaldo Braziliyanın “Kruzeyro” klubunun səhmlərinin 90 faizini satın alaraq komandanın sahibi olub. Bu müqavilə keçmiş futbolçuya təxminən 70 milyon dollara (119 milyon manat) başa gəlib. “Kruzeyro” Ronaldonun ikinci klubu oldu. O, həmçinin İspaniyanın “Valyadolid” klubunun sahibidir.



Qeyd edək ki, 1993-cü ildə Ronaldo 50 min dollarlıq transfer müqabilində “Kruzeyro”ya keçib. O, bu klubda 1993-cü ilin iyulundan 1994-cü ilin avqustuna kimi 57 qol vuraraq (onlardan 44-ü rəsmi matçlarda) klubun ən yaxşı bombardiri olub. Bu da Avropa klubları arasında ona diqqətin artmasına gətirib. Belə bir başlanğıcdan sonra Ronaldo 1994-cü ildə PSV-yə (Niderland) keçib və buradan da onun Avropa karyerası başlayıb.


Olimpiya dünyası

Baş redaktorun müavini: A.B.Şirəliyev

Qəzet Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı üzrə Bakı Bölgə Şöbəsində qeydiyyatdan keçib. Qeydiyyat N R-168

AZƏRBAYCAN BEYNƏLXALQ BANKI
VÖEN 9900001881
H/H AZ79IBAZ38090019449333849204
M/H AZ03NABZ01350100000000002944
KOD 805722
VÖEN 1500306421

Təqdim olunmuş materiallar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.
Redaksiya reklam materiallarının məzmununa görə məsuliyyət daşımır.

Qiyməti 40 qəpikdir.
Qəzet “Olimpiya dünyası”nın kompüter mərkəzində yığılır, səhifələnir və “CBS” mətbəəsində (Şərifzadə küçəsi, 3. tel: 447-75-05(04)) çərşənbə axşamı 4100 nüsxə ilə çap edilir.



DİQQƏT!
Qəzetimizin materiallarından istifadə edərkən “Olimpiya dünyası”na istinad etmək zəruridir.



*E-mail:* olimpiya_dunyasi@mail.ru
*Ünvan:* Bakı şəhəri, 2-ci sülh döngəsi, 2a.
*Tel.:* 564-90-49; 564-74-19